# Daşnaklar Qubada xüsusi qəddarlıq törədiblər

***Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır.***



Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, insanlar işgəncələrə məruz qalmışdır. Yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir.

Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirib, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan, Quba və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçiriblər. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmişdir.

Xatırlatmaq istərdim ki, 30 dekabr 2009-cu ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddialarını və təcavüz siyasətini, qanlı cinayətlərini dünya ictimaiyyətinə çatdırmaq, gələcək nəsillərin milli yaddaşını qorumaq və soyqırım qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədi ilə Quba şəhərində "Soyqırım Memorial Kompleksi"nin yaradılması haqqında sərəncam imzalayıb.

2013-cü il sentyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və xanımı Mehriban Əliyeva Quba Soyqırımı Memorial Kompleksinin açılışını ediblər.

Bu günlərdə muzeyi çox sayda insan ziyarət edir. İnsanlar daşnak-bolşevik qatillarinin xalqımıza qarşı törətdiyi ağlasığmaz cinayətlərlə bağlı fakt və sənəflərlə tanış olarkən bundan dəhşətə gəlirlər. Tarix heç vaxt qatilləri bağışlamayacaq.

Bəli, xalqımız daşnak-bolşevuk silahlı dəstələrinin törətdikləri ağır zorakılıqları heç vaxt unutmur, bu qanlı əməlləri icra edənləri daim lənətləyir.

***Anatoli RAFAİLOV,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin deputatı***

Xalq qəzeti.- 2022.- 1 aprel.- S.5.